AZƏRBAYCAN www.azerbaijan-news.az

# Ümummilli liderin xatirəsi xarici ölkələrdə də anılıb

Azərbaycan xalqının ümummilli liderinin anadan olmasının 93-cü ildönümü münasibətilə İstanbulun Sarıyer rayonundakı Heydər Əliyev Parkında anma mərasimi keçirilib.

**İstanbul**dakı baş konsulluğumuz tərəfindən təşkil olunan mərasimdə Azərbaycan və Türkiyə ictimaiyyətlərinin görkəmli nümayəndələri, Sarıyer bələdiyyəsinin rəhbərliyi, İstanbulda fəaliyyət göstərən beynəlxalq təşkilatların başçıları, Türkiyə ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr və müdavimlər, hərbçilərimiz, KİV və QHT təmsilçiləri iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.

Sonra mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsinə ehtiram nümayiş etdiriblər. Ziyarətçilər Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün də bu ərazidə yerləşən heykəli qarşısına gül dəstələri qoyublar.

Tədbiri giriş sözü ilə açan professor Adil Allahverdiyev Heydər Əliyevin xilaskarlıq missiyası, yarım əsrə yaxın dövrü əhatə edən siyasi hakimiyyəti illərində gördüyü böyük işlər, Azərbaycanın hərtərəfli yüksəlişinə və dövlətimizin möhkəmlənməsi üçün göstərdiyi səylər, Azərbaycan-Türkiyə münasibətlərinin davamlı inkişafına verdiyi töhfələr haqqında danışıb.

Heydər Əliyevin tarixi xilaskarlıq missiyasından, Azərbaycan-Türkiyə münasibətlərinin yüksəlişindəki əvəzsiz rolundan bəhs edən baş konsul Məsim Hacıyev diqqətə çatdırıb ki, Ankarada törədilən dəhşətli terror hadisəsindən sonra Prezident İlham Əliyevin bu şəhərə səfər etməsi, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Prezident İlham Əliyevin təklifi ilə Ankarada keçirilməsi ulu öndərin müəyyən etdiyi siyasi xəttin dövlət başçısı tərəfindən uğurla davam etdirilməsinə bariz nümunədir.

Sonra Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Mehbalıyev, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar, Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı Ramin Nuriyev və İstanbul Universitetinin doktorantı Dilbər Quliyeva, İstanbuldakı Türkiyə-Azərbaycan Dərnəyinin sədri Səfər Qaraqoyunlunun çıxışları dinlənilib.

Çıxışlarda ulu öndərin siyasi fəaliyyətinin bütün istiqamətləri, yüksək insani keyfiyyətləri, ali məqsədləri, həyat prinsipləri barədə iştirakçılara müfəssəl məlumat verilib. Diqqətə çatdırılıb ki, bütün siyasi fəaliyyətini Azərbaycan xalqının işıqlı gələcəyinə sərf edən Heydər Əliyevin həyata keçirdiyi siyasi, iqtisadi layihələr təkcə ölkəmizin deyil, qonşu və qardaş xalqların da rifahının yüksəlişinə böyük töhfə verib. Məhz ümummilli liderin həyata keçirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın hərtərəfli inkişafını, o cümlədən Silahlı Qüvvələrimizin gücləndirilməsini təmin edib.

* * *

Azərbaycanın **Vyetnam**dakı səfirliyinin dəstəyi ilə Vyetnam Milli Universitetinin kitabxanasında Azərbaycan guşəsi açılıb. Ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü gününə təsadüf edən açılış mərasimində universitetin tələbə-müəllim heyəti, tədqiqatçılar, Azərbaycanın Mədəniyyəti və Tarixinin Araşdırmaları Mərkəzinin, Vyetnam-Azərbaycan Dostluq Təşkilatının nümayəndələri, jurnalistlər iştirak ediblər.

Azərbaycanın Vyetnamdakı səfiri Anar İmanov ümummilli lider Heydər Əliyevin sovet dövründə və müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zaman əldə edilmiş uğurlar, keçmiş Sovet İttifaqı ilə Vyetnam arasında münasibətlərin genişləndirilməsində, o cümlədən Vyetnam iqtisadiyyatının sürətli inkişafında Azərbaycanın rolu, bu istiqamətdə kadrların hazırlanması məqsədilə Vyetnamdan olan tələbələrin Azərbaycanda təhsil almasından bəhs edib.

Səfir Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Dağlıq Qarabağ münaqişəsi, xalqın tələbi ilə 1993-cü ildə ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə qayıtması və dövlətimizin müstəqilliyinin gücləndirilməsi istiqamətində atdığı addımlar haqqında ətraflı məlumat verib.

Səfir 1983-cü ildə Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən Vyetnam Sosialist Respublikasına səfərinin xalqlarımız arasında əlaqələri daha da möhkəmlətdiyini xüsusi qeyd edib.

A.İmanov müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin 2014-cü ilin mayında Vyetnama rəsmi səfərinin iki ölkə arasındakı münasibətlərdə dönüş nöqtəsi rolunu oynadığını bildirib. Səfir Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici və daxili siyasət nəticəsində Azərbaycanın regionda müasir, güclü dövlətə çevrilərək sürətlə inkişaf etdiyini, Cənubi Qafqaz bölgəsində müxtəlif genişmiqyaslı layihələrin həyata keçirildiyini qeyd edib.

Azərbaycanın Mədəniyyəti və Tarixinin Araşdırmaları Mərkəzinin rəhbəri Dao Xuan Tien Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dünyanın görkəmli siyasətçiləri arasında ön sırada olduğunu vurğulayaraq, bu şəxsiyyətin Vyetnamın hərtərəfli inkişafına böyük töhfə verdiyini, bunun Vyetnam xalqının yaddaşından heç vaxt silinməyəcəyini deyib.

Sonra Azərbaycan guşəsində Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti, həmçinin onun şah əsəri olan Azərbaycanın sürətli inkişafı barədə videoçarxlar nümayiş etdirilib, ulu öndərin 1983-cü ildə Vyetnama rəsmi səfərini, sovet və müstəqillik dövründəki fəaliyyətini əks etdirən fotosərgi təşkil olunub.

Səfirlik Heydər Əliyev və Azərbaycan haqqında geniş çeşidli kitabları universitetin kitabxanasına hədiyyə edib.

* * *

Mayın 10-da Azərbaycan Respublikasının **İspaniya Krallığı**ndakı səfirliyində ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilən anma mərasimi keçirilib.

Mərasimdə Türkiyə, Qazaxıstan və Ukraynanın bu ölkədəki diplomatik nümayəndəliklərinin rəhbərləri, digər ölkələrin diplomatları, İspaniya ictimaiyyətinin, yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri və burada yaşayan azərbaycanlılar iştirak ediblər.

Anma mərasimində səfir Anar Məhərrəmov çıxış edərək Heydər Əliyevin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarından bəhs edib, Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında və ölkədə sabitliyin bərqərar olmasında müdrik rəhbərin müstəsna xidmətlərini diqqətə çatdırıb.

Azərbaycanlı diplomat tarixi torpaqlarımızın Ermənistan tərəfindən işğal edildiyi, ölkədə xaos və hərc-mərcliyin hökm sürdüyü çətin bir vaxtda Heydər Əliyevin xalqın istəyi ilə yenidən hakimiyyətə qayıtmasını xatırladıb. A.Məhərrəmov məhz uzaqgörən siyasətçi və təcrübəli dövlət başçısı Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə atəşkəs barədə razılıq əldə olunduğunu qeyd edib. O, həmçinin ölkəmizin zəngin enerji ehtiyatlarından istifadənin müstəqilliyin təminatında xüsusi rolunu qeyd edərək Heydər Əliyevin ciddi səyi nəticəsində 1994-cü ilin sentyabrında imzalanmış “Əsrin müqaviləsi”ni də xatırladıb.

Gənc Azərbaycan dövlətinin gücləndirilməsi istiqamətində Heydər Əliyevin gördüyü misilsiz işlərə toxunan səfir ümummilli liderin səyi nəticəsində Azərbaycanın 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv seçilməsi, BMT, NATO, Avropa İttifaqı və digər mötəbər beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq etməsini də xüsusi qeyd edib.

Vurğulanıb ki, xatirəsi xalqımız tərəfindən daim əziz tutulan Heydər Əliyevin qoyub getdiyi zəngin siyasi irs və təcrübə əsasında Azərbaycan dövləti daha da güclənir, bu siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra Türkiyə və Qazaxıstanın İspaniyadakı səfirləri çıxış edərək Heydər Əliyevi tarixi bir şəxsiyyət kimi dəyərləndirib, Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında və ölkələrimiz arasında əlaqələrin bugünkü yüksək səviyyədə olmasında müstəsna rolunu diqqətə çatdırıblar.

Tədbirdə ümummilli lider Heydər Əliyev haqqında ispan dilində sənədli film nümayiş etdirilib. Mərasim iştirakçıları, həmçinin ulu öndərin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxıblar, səfirlik tərəfindən ispan dilində çap etdirilmiş bukletlərlə tanış olublar.

Daha sonra qonaqlar tədbirlə bağlı hazırlanmış süfrəyə dəvət olunublar.

* * *

Mayın 10-da **Rumıniya**nın Buxarest şəhərində yerləşən Tey Parkı-Heydər Əliyev Xiyabanında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar anma mərasimi keçirilib.

Mərasimdə Azərbaycanın Rumıniyadakı səfirliyinin, “Socar Petroleum SA” şirkətinin, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin, Azərbaycan-Rumıniya Mədəniyyət və Gənclər Assosiasiyasının rəhbər heyətləri və üzvləri, Rumıniyada yarışlarda olan Azərbaycanın Kikboksinq Federasiyasının idmançıları, burada yaşayan və təhsil alan azərbaycanlılar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları ulu öndərin abidəsi önünə əklillər və gül dəstələri qoyublar.

Azərbaycanın Rumıniyadakı səfirliyinin əməkdaşı Vüqar Hüseynli dövlətçiliyimizin möhkəmləndirilməsində, ölkəmizdə sabitliyin bərqərar edilməsində, bütün sahələrdə inkişafın təmin olunmasında, demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıb. Diplomat bildirib ki, Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafını və dünyada mövqelərinin möhkəmlənməsini təmin edən Heydər Əliyevin uğurlu siyasi kursu bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir.

* * *

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Azərbaycanın **Türkmənistan**dakı səfirliyi tərəfindən keçirilən tədbirdə bu ölkədə yaşayan soydaşlarımız, ictimaiyyət nümayəndələri və ziyalılar iştirak ediblər.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olduğunu bildirən səfir Həsən Zeynalov onun Sovet İttifaqı zamanı Azərbaycana ilk rəhbərliyi dövründən başlayaraq ölkəmizin iqtisadi, sosial, mədəni və digər sahələrdə böyük nailiyyətlərə imza atdığını, keçmiş SSRİ-nin aparıcı respublikalarından birinə çevrildiyini vurğulayıb. O, Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin formalaşmasında mühüm rol oynadığını qeyd edib.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti olduğu illərdə də ölkəmizin bütün sahələrdə qüdrətinin gücləndirilməsi yönündə yorulmadan çalışdığı, məhz onun sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyin bərpa olunduğu və ölkənin iqtisadi inkişaf dövrünə qədəm qoyduğu tədbir iştirakçılarının nəzərinə çatdırılıb. Qeyd olunub ki, əsası ulu öndər tərəfindən qoyulmuş siyasi və iqtisadi kurs hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Tədbir iştirakçıları qeyd olunan fikirləri bölüşərək Heydər Əliyevin xatirəsinin Azərbaycan xalqının qəlbində daim yaşayacağını bildiriblər.

**AZƏRTAC**